

# Vüsalın qəhrəmanlıq dastanı

***Astaranın Alaşa kəndində dünyaya göz açan Vüsal Üzeyir oğlu Nehmətovun adı çəkiləndə burada böyük də, kiçik də qürur hissi keçirdir. Çünki Vüsal İkinci Qarabağ müharibəsində 30 il düşmənə əsir düşən, Azərbaycan xalqının doğma, əzəli torpaqlarının azadlığı uğrunda hünər göstərərək 33 yaşında şəhidlik zirvəsinə ucalmışdır.***

Onun keçdiyi ömür yolu qısa olsa da, başdan-başa Vətənə sevgi, torpağa məhəbbətdir. Astaralılar öz qəhrəman oğlunu ürəklərində yaşatmaqla bərabər, dövlət də ölümündən sonra Vüsal Üzeyir oğlunu "Vətən uğrunda", "Cəsur döyüşçü" və digər medallara layiq görübdür.

Fəqət, uşaqlıqdan Vətən sevgisini bütün sevgilərdən üstün bilən Vüsal Üzeyir oğlu 2005-ci ildə onun keşiyini çəkməyə yollanır. Öz övladlıq borcunu ilk gündən ləyaqətlə, mərdliklə yerinə yetirən bu təmiz ürəkli, sədaqətli gəncin başına əsgər yoldaşları and içirlər. Vətəni yaşatmaq üçün onun bir ovuc torpağına dönməyə hazır olan Vüsal yağı düşməndən qisas almaq məqsədilə həqiqi xidmətdən sonra ömrünü hərbiyə bağlayır. Azərbaycan Silahlı Qüvvələrinin Təlim Tədris Mərkəzində "Gizir hazırlığı" kursunda oxuyur, tankçı ixtisasına yiyələnir. Təlimlərdə nümunəvi hərbiçi kimi xüsusi peşəkarlıq göstərir, Vətənin təmənnasız müdafiəçisinə çevrilir. Və son qarış torpaqlarımızın azad olunacağı günədək yağı düşmənlə döyüşəcəyinə and içir.

İkinci Qarabağ müharibəsi başlanan andan Vətənin güvəndiyi, qeyrətli oğullardan biri də məhz Vüsal olur. Ən qaynar nöqtələrdə erməni dığasından çəkinmədən, qorxmadan odun-alovun içinə girir. Necə-neçə ağır müharibəyə qatılır. Hər qarış torpaq uğrunda əzmlə döyüşür. Düşmən onun zərbini görüb, itki verə-verə silah-sursatını qoyub qaçmağa başlayır..

Müharibə qansız olmur. Vüsal Füzulinin azadlığı uğrunda düşmənlə son nəfəsinə qədər fədakarlıqla vuruşur. Özü şəhid olsa da, yağıya vurduğu amansız zərbələr nəticəsində Azərbaycanın üçrəngli qələbə bayrağı burada dalğalanır. Göstərdiyi bu rəşadət Astara elinin qəhrəman oğlunu ölməzliyə qovuşdurur. İndi onun adı bütün Vətən üçün əzizdir. Gələcək nəsillərdə Vüsalın ömür yolunu özlərinə örnək biləcəklər.

*Zəfər Orucoğlu,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*